İki sahil.- 2019.- 1 noyabr.- S.7.

## *Aydın Hüseynov:*

# İnflyasiyanın sabit qalması təmin edilib

**"2019-cu ildə çox böyük sosial paketin reallaşması sayəsində 4 milyon 200 mindən çox insanın maddi vəziyyətinin yaxşılaşması və bu sosial tədbirlərə dövlət büdcəsindən 1 milyard manatdan artıq vəsaitin ayrılmasına baxmayaraq, ölkəmizdə inflyasiyanın səviyyəsi sabit qaldı". Bu fikirləri Milli Məclisin deputatı Aydın Hüseynov İkisahil.TV-yə açıqlamasında bildirib.**

A.Hüseynov qeyd edib ki, 2019-cu ilin ötən 9 ayı ərzində ölkəmizin sosial-iqtisadi inkişafı davam edib, iqtisadi siyasətin prioritet istiqamətləri olan makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, regionların tarazlı inkişafı, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması və digər sahələrdə əhəmiyyətli irəliləyişlərə nail olunub, əhalinin rifah halının daha da yüksəldilməsi təmin edilib: "Bəzi şəxslər hesab edirdilər ki, bu həcmdə böyük artımlar qiymətlərin bahalaşmasına, inflyasiyanın sürətlənməsinə səbəb olacaq. Ancaq dövlətimizin yürütdüyü uğurlu siyasət sayəsində inflyasiyanın sabit qalması təmin edildi."

Ölkəmizin beynəlxalq uğurlarından danışan Aydın Hüseynov bildirdi ki, Azərbaycanın Qoşulmama Hərəkatına üzv olduqdan 8 il sonra təşkilatın beynəlxalq tədbirinə ev sahibliyi etməsi ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun real göstəricisidir: "Tədbirin Bakıda təşkili iqtisadi, siyasi və beynəlxalq baxımdan mühüm əhəmiyyət kəsb etməklə Azərbaycanın dünyaya açıq ölkə olduğunu və humanizm dəyərlərinə sadiq qaldığını təsdiqləyir. Çünki artıq hər kəsə yaxşı məlumdur ki, Prezident İlham Əliyevin rəhbərliyi sayəsində Azərbaycan dinamik surətdə inkişaf edərək dünya birliyində qüdrətini durmadan artırır. Zirvə Görüşündə iştirak edən ölkələrin və beynəlxalq təşkilatların rəhbərləri ölkəmizin sosial ədalət prinsiplərinə sadiq qalaraq son dərəcə sürətlə inkişaf etdiyini görməklə, Ermənistanın faşist siyasətinə bir daha yaxından bələd olacaqlar. Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə Görüşündə ölkəmizin bu təşkilata 2019-2022-ci illər üçün sədr seçilməsi müstəqil respublikamızın siyasi, iqtisadi və beynəlxalq sahədə qazandığı nailiyyətlərin məntiqi nəticəsidir. BMT-dən sonra Azərbaycanın dünyanın ən böyük ikinci beynəlxalq təşkilatına sədrlik etməsi ölkəmizin beynəlxalq münasibələr sistemindəki mövqeyinin artmasına, möhkəmlənməsinə xidmət edəcək".



A.Hüseynov vurğuladı ki, Zirvə Görüşünün Bakı Bəyannaməsində 120 ölkə tərəfindən Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü birmənalı şəkildə dəstəkləndi və torpaqlarımızı zəbt edən Ermənistanın işğalçı dövlət kimi tanınması bir daha rəsmiləşdi: "Bundan başqa, Azərbaycanın təşəbbüsü ilə yekun sənədə sammit iştirakçılarının üzv ölkələrin məcburi köçkünlərin hüquqlarının təmin olunması, müdafiəsi və bərpa olunması, o cümlədən onların öz evlərinə layiqli və təhlükəsiz qayıdışı sahəsində nizamlama yollarının təşviqində məsuliyyətini tanıdığını ifadə edən müddəa salınıb. Sənədə, həmçinin istənilən formada nasist və neonasist xarakterli ideologiyaların qəhrəmanlaşdırılması, "Vaffen SS" silahlı birləşməsinin keçmiş üzvlərinə abidələr ucaldılması, onların şərəfinə yürüşlərin keçirilməsi, eləcə də onların milli azadlıq hərəkatının iştirakçıları kimi qələmə verilməsinin sammit iştirakçıları tərəfindən pislənməsi barədə müddəalar da daxil edilib. Mahiyyət etibarilə bu müddəada Prezident İlham Əliyevin Aşqabadda MDB sammitində səsləndirdiyi Qaregin Njdenin Ermənistanda qəhrəmanlaşdırılması ilə bağlı tezislərinə beynəlxalq səviyyədə dəstək bəyan edilir."

Aydın Hüseynov diqqətə çatdırdı ki, təbii ki, bütün bu uğurlar Vətənini, dövlətini, torpağını, müstəqilliyini, xalqını və onun xoşbəxt gələcəyini sevən hər bir insan tərəfindən sevinclə qarşılandığı halda, xarici və daxili düşmənlərimiz buna qısqanclıqla yanaşırlar: "Bu səbəbdən də onlar çirkin niyyətlərin ətrafında birləşərək ölkəmizə qarşı iftiralar atmağa və daxildə qarşıdurma yaratmağa çalışırlar. Onlar başa düşməlidirlər ki, ölkəmizdə çox möhkəm və sarsılmaz xalq-iqtidar birliyi mövcuddur və bu birlik hər hansı bir qanunazidd hərəkətlərə cəhdin qarşısını cəsarətlə alacaq, sabitliyi daim qoruyacaq."

**Şəmsiyyə Əliqızı,**

**Könül Əliyeva,**

***"İki sahil"***